# Qəbələdə sosial-iqtisadi inkişafın uğurları

## 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat

# MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

verilərək, əhali abonentlərin ümumi sayı 18.304-ə çatdırılmışdır. "Təmiz Qaz" MMC və xidmət sahəsi tərəfindən aşkar olunmuş 6.719 sızma ləğv edilmişdir. İşləməyən 154 sayğac əvəzlənərək dövlət yoxlamasına göndərilmişdir. Dövlət Proqramı üzrə Azəriqaz İB-nin sifarişi ilə 91 abonenet, fərdi qaydada 116 abonent, ümumilikdə 207 əhali abonent və 6 qeyri əhali abonenet qazla təmin olunmuşdur.

Qəbələ Su-kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su hövzələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi, Heydər Əliyev, İmadəddin İmadəddin Nəsimi küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində ikinci mərhələ üzrə işlər davam etdirilir. Layihənin icrası ilə əlaqədar indiyədək müxtəlif diametrli borularla 18,7 km su xətləri, 19 km kanalizasiya xətləri çəkilmiş, 824 su və 1319 kanalizasiya birləşmələri verilmiş, 600 ədəd su sayğacı quraşdırılmışdır. Altı ay ərzində 200,4 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmişdir. Yığım faizi əhali sektoru üzrə 94,0 %, büdcə üzrə 92,4 %, kommersiya və digər təşkilatlar üzrə 107,0 % təşkil etmişdir.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı altı ay ərzində şəhər təsərrüfatına 175,3 min manat, ictimai yaşayış binalarına 25,3 min manat, idarə və müəssisələrə 45,1 min manat, kommersiya obyektlərinə 6,7 min manat, fərdi təsərrüfatlara 3,1 min manat olmaqla cəmi 255,5 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

Qəbələ Rayon 10 nömrəli Yol İstismarı MMC tərəfindən rayon ərazisində 6 ay ərzində 491,0 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya qovşağı 671,0 min manat taarif gəliri proqnozuna qarşı 674,3 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 101,5 % əməl olunmuşdur. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3.614 nömrə), 23 kənd EATS-i (8.336 nömrə), 3 mini EATS-i (96 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 12.052 nömrə təşkil edir. 2 kənd (6 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Yarım il ərzində şəhər və kənd əhalisinə 238 ədəd telefon çəkilmiş, 921 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 5.921 nəfərdir. Şəhər telefon şəbəkəsində 100 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Şəhərin Gənclik küçəsində 50 nömrə üçün yeni şəbəkə tikilmiş, Heydər Əliyev prospektində 30-a yaxın zədəli cütlüklər təmir olunmuşdur. Həzi Aslanov, 28 May küçələrində və Zarağan kənd xətt şəbəkəsində kabellərdə ölçmə işləri aparılaraq zədəli kabellər təmir edilmişdir. Nic və Bum qəsəbə EATS-nin xətt şəbəkəsində cari təmir işləri davam etdirilir. Mıxlıqovaq kəndinə yeni asfalt yolun çəkilişi ilə əlaqədar 30 ədəd dəmir dirək basdırılmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ filialı 161,2 min manata qarşı 159,3 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 99,0 % yerinə yetirmişdir.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində 6 ay ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 2.763,5 min manata qarşı 3.404,0 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 123,2 % əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 906,5 min manata qarşı 957,5 min manat və ya 105,6 %, qeyri-büdcə təşkilatları üzrə isə, 1857,0 min manata qarşı 2.446,5 min manat və ya 131,7 % olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 640,5 min manat və ya 23,0 % çox məcburi dövlət sığorta haqları toplanmışdır. Yarım il ərzində 482 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 61 nəfəri hüquqi, 421 nəfəri fiziki şəxs olmuşdur. 1 iyul 2018-ci il vəziyyətinə şöbə üzrə 11.419 pensiya işi üzrə 11.628 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 12.759,9 min manat pensiya, 148,9 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.111,9 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 184 manat 95 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 9.680,0 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.471 hərəkətdə olan sosial müavinət, 529 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 375,0 min manat təşkil edir.

Hər il olduğu kimi 2018-ci ilin birinci yarısı ərzində rayonda tikinti-quruculuq işləri uğurla davam etdirilimişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 246 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 459 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 142 kub/metr qabion bəndi vurulmuş, 751 kub/metr daş beton bəndi, 28 kub/metr şax bəndi cari təmir edilmişdir.

Qəbələ şəhərində 160 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası Kompleksinin tikintisinə başlanılmışdır. Ötən dövr ərzində şəhərdə 120 yerlik uşaq bağçası və körpələr evi, içməli su və kanalizasiya sisteminin yenidənqurulması, Laza kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin, Zərgərli kəndində 56 şagird yerlik modul tipli ibtidai məktəbin tikintisi, Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun əsaslı təmiri, şəhərin Muxtar Abduyev küçəsində beş mərtəbəli, Heydər Əliyev prospektindəki iki mərtəbəli yaşayış binalarının əsaslı təmiri, Zarağan kəndində tam ota məktəb binasının dam örtüyünün təmiri, Mıxlıqovaq kəndində içməli su təchizatı sisteminin qurulması, Mıxlıqovaq və Kötüklü kəndlərinin qazlaşdırılması işləri davam etdirilmişdir. Bununla yanaşı Zərifə Əliyeva adına Mədəniyyət və İstirahət Parkında əsaslı təmir işlərinə başlanılmışdır. Hacılalılı kəndində 40 uşaq yerlik uşaq bağçasında təmir işləri başa çatdırılmışdır.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə rayonun Vəndam qəsəbəsində 360 şagird yerlik tam orta məktəb, Qaradeyn kəndində 80 şagird yerlik modul tipli tam orta məktəb, Şəfili kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binasının və "Azərbaycan Dəmir Yolları" ASC-nin sifarişi ilə 43 km uzunluğunda Ləki-Qəbələ birxətli dəmir yolu tikintilərində hazırlıq işləri aparılır.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə və Uludaş kəndlərində subartezian quyularında qazma işləri başa çatdırılmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin birinci yarısı ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib. Gəzinti zamanı Nic qəsəbəsindəki "Cotari" Alban-Udi xiristian kilsəsi və qəsəbədə yaşayan udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılmışdır. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri yarışları, iyun ayında rayonun Vəndam qəsəbəsi ərazisində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı, Heydər Əliyev Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici" VI Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilmişdir.

Eləcə də hesabat dövründə Almaniya Federativ Respublikasının səfiri cənab Mixael Kindsqrab tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişdir. Səfər çərçivəsində səfir Mixael Kindsqrab rayonun tarixi-mədəni yerləri və sənaye müəssisələri ilə yaxından tanış olmuşdur.

Bununla yanaşı iyun ayının 20-22 tarixlərində rəhbərlik etdiyim nümayəndə heyətilə birlikdə Qnezno şəhərində keçirilən Azərbaycan Respublikasında müstəqilliyin əldə edilməsinin və Polşa Respublikasının müstəqilliyinin bərpa olunmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirlərdə iştirak etmişəm.

Səfər çərçivəsində nümayəndə heyəti Qnezno şəhərinin bir sıra istehsal müəssisələri, bölgənin tarixi-mədəni yerləri və turizm sektoru ilə yaxından tanış olmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Qəbələ Rayon Təhsil şöbəsi 2017-2018-ci dərs ilinin ikinci yarımilini yüksək nəticələrlə başa vurmuşdur. Ümumtəhsil məktəblərinin müvəffəqiyyət faizi 99,9 %, keyfiyyət göstəricisi 66,9 % olmuşdur.

İlin nəticələrinə görə şəhər 1,2,3,4 və 5 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Nohurqışlaq, Tüntül, Bunud, Həmzəli, Soltannuxa, Hacılalılı, Çarxana, Yemişanlı və Mıxlıqovaq kənd tam orta məktəblərinin göstəriciləri daha yüksək olmuşdur.

Rayonun mədəni-maarif müəssisələri tərəfindən 2018-ci ilin altı ayı ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir cox maraqlı mədəni-kütləvi bədii proqramlar hazırlanmışdır.

Bakıda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarından ibarət stend təşkil olunmuş, kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilmişdir.

Qəbələdə 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Rayonumuzdakı mehmanxana tipli obyektlərdə bir gündə 2000-dən yuxarı turisti qəbul etmək imkanı vardır. Son 6 ayda Qəbələyə 172.000 nəfərdən çox turist gəlmişdir.

2018-ci ilin birinci yarısında rayonumuzdakı 23 məktəbəqədər təhsil müəssisəsinin mövcud maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə bu ilin yerli büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq yumşaq və bərk inventar alınmış, ərzaq təchizatı daha da yaxşılaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikada keçirilən IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində bu ilin mart ayında Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy rayonlarının məktəbliləri Qəbələyə gəlmiş, rayonumuzla ətraflı tanış edilmişlər. Həmçinin mart ayının 26-28-də bizim məktəblilərimiz həmin aksiya çərçivəsində Gəncə-Şəmkir-Göygöl rayonları ilə tanış olmuşlar.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin pilot layihəsinə əsasən Çuxur Qəbələ kənd kitabxanasında "Mədəniyyət müəssisələrinin tanıdılması və kitab oxuma mədəniyyətinin təbliği" mövzusunda və Qəbələ şəhərində "Heydər Əliyev Mərkəzinin sosial siyasi əhəmiyyətinin artırılması" mövzusunda tədbirlər keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi münasibətilə rayon mədəniyyət mərkəzində ümumrayon tədbiri təşkil edilmiş, ulu öndərin həyatna və siyasi fəaliyyətinə həsr olunmuş "dəyirmi masa"lar keçirilmiş və sənədli filmlər göstərilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

Qəbələ Rayon Mərkəzi Xəs-

(Ardı 6-cı səhifədə).